# Qəhrəmanın son uçuşu

## Mayın 19-u Azərbaycanın Milli Qəhrəmanı İqor Kşnyakinin doğum günüdür

**25 dekabr 2024-cü il. Səhər saatlarında Azərbaycan və dünya mediasında "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinə məxsus "Embraer 190" tipli sərnişin təyyarəsi Bakı-Qroznı reysini yerinə yetirərkən Qazaxıstanın Aktau şəhəri yaxınlığında qəzaya uğraması ilə bağlı məlumat yayıldı. Bu faciəli xəbər hamını sarsıtdı. Qəza nəticəsində göyərtədə olan 67 nəfərdən (62 sərnişin və 5 ekipaj üzvü) yalnız 29 nəfər sağ qalıb. Bu, pilot İqor Kşnyakinin qəhrəmanlığı sayəsində mümkün olub. İqor Kşnyakin və ikinci pilot Aleksandr Kalyaninov idarəetmə sistemlərin sıradan çıxmasına baxmayaraq, təyyarəni Xəzər dənizi üzərindən Aktau Beynəlxalq Hava Limanına yaxın əraziyə yönləndiriblər.**



İqor İvanoviç Kşnyakin 1962-ci il mayın 19-da Bakı şəhərində anadan olub. Pilot ixtisası üzrə ilk təhsilini 1982-ci ildə Ryazan vilayətində Sovet İttifaqı Qəhrəmanı Qriqori Taran adına Sasovo Mülki Aviasiya Uçuş Məktəbində alıb. Həmçinin 1992-ci ildə Rusiya Dövlət Hidrometeoroloji İnstitutunun Meteorologiya ixtisasını bitirib.

1982-ci ildə Yevlax Birləşmiş Aviasiya Dəstəsinin An-2 təyyarəsinin 2-ci pilotu vəzifəsində əmək fəaliyyətinə başlayıb. 1984-cü il yanvarın 6-dan Zabrat Birləşmiş Aviasiya Dəstəsinin An-2 təyyarəsinin 2-ci pilotu, 1990-cı ildə Azərbaycan Mülki Aviasiya İdarəsinin Yak-40 Hava Gəmisinin 2-ci pilotu olub. 1994-cü ildə Yak-40 Hava Gəmisinin komandiri, 1997-ci ildə "Azal" Milli Aviasiya Şirkətinin Yak-40 Hava Gəmisinin kapitanı təyin edilib.

2013-cü il iyunun 3-dən etibarən Embraer-170/190 Hava Gəmisi üzrə yenidən təlim kursunu bitirdikdən sonra həmin hava gəmisinin stajçı-pilotu vəzifəsinə keçirilib. 2013-cü il dekabrın 11-dən etibarən "Azərbaycan Hava Yolları" QSC-nin Uçuşların İstehsalı İdarəsinin Uçuş Xidmətində Embraer-170/190 hava gəmisinin kapitanı vəzifəsinə təyin edilib.

2020-ci ildə Bakıdan Moskvaya uçarkən Kşnyakinin komandir olduğu təyyarədə sərnişinlərdən birinin halı pisləşib. Kşnyakin təcili eniş edib və sərnişinin həyatı xilas edilib.

Ötən il dekabrın 29-da Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakı-Qroznı istiqamətində uçan təyyarənin qəzaya uğraması nəticəsində həlak olan ekipaj üzvlərinin Heydər Əliyev Beynəlxalq Aeroportunda keçirilən vida mərasimində iştirak edib, onların ailə üzvlərinə və yaxınlarına başsağlığı veriblər.

Bu ilin yanvarın 6-da "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinə məxsus Bakı-Qroznı reysini yerinə yetirərkən qəzaya uğramış "Embraer 190" tipli sərnişin təyyarəsinin həlak olan ekipaj heyətinin ailə üzvləri və qəza zamanı sağ qalan təyyarə bələdçiləri ilə görüşən Prezident İlham Əliyev demişdir: "Məhz pilotların peşəkarlığı, qəhrəmanlığı, fədakarlığı nəticəsində təyyarə Aktau şəhərində qəza enişi edə bilib. ...Ekipaj üzvlərinin qəhrəmanlığı haqqında mən vida mərasimi zamanı bildirmişdim. Bir daha demək istəyirəm, bu, doğrudan da böyük fədakarlıqdır. Mən bildirdim, çox güman, pilotlar bilirdilər ki, bu qəzadan sağ çıxa bilməyəcəklər. Onlar təcrübəli pilotlar idi, idarəolunmaz vəziyyətdə olan təyyarəni məhz öz peşəkarlıqları nəticəsində bir yolla məkana yetişdirə bilmişdilər və qəza enişi olsa da, təyyarəni endirə bilmişdilər. Ekipajın digər üzvləri - bələdçilər də soyuqqanlılıq göstərmişlər. Təyyarədə xaosun yaranmaması üçün böyük cəsarət göstərmişlər. Onlar da görürdülər, bilirdilər ki, onları nələr gözləyir. Yəqin heç ümid etmirdilər ki, bu vəziyyətdən sağ-salamat çıxa bilərlər. Belə vəziyyətdə özünü təmkinlə, soyuqqanlılıqla, cəsarətlə aparmaq, əlbəttə ki, bir daha onların yüksək keyfiyyətlərini göstərir. ...Görünür, pilotlar əmin idilər ki, bu, onların sonuncu reysidir, amma bununla belə, insanları xilas etmək üçün hər şeyi etdilər. Qəhrəmanlıq da bundan ibarətdir. Əgər pilotların nümayiş etdirdikləri qəhrəmanlıq və fədakarlıq meyarları varsa, bunu məhz belə adlandırmaq lazımdır".

Qızı qəhrəman atası haqqında deyib: "Ata, sən mənim qəhrəmanımsan, həmişə ürəyimdə qalacaqsan, onlarla insanın həyatını xilas etmək üçün əlindən gələni etdin, öz həyatını qurban verdin, günahkarı tapdın, mənim yanımda çox güclüsən, belə bir atam olduğu üçün həmişə fəxr edəcəm. Çox əyləncəli idin, həmişə bizim üçün hər şeyi etdin, xoşbəxt olmağımızı istədin. Ən yaxşı ata! Cənnətdə olasan, inşallah! Atam böyük qəlbi olan, çox təcrübəli pilot idi. Atam hər zaman deyirdi, "mən havaya qalxanda təkcə öz həyatıma görə deyil, həm də bütün sərnişinlərin, ekipaj üzvlərinin həyatına görə məsuliyyət daşıyıram. O, son uçuşu ilə əsl qəhrəmanın necə olduğunu sübut etdi. Allah rəhmət eləsin!".

Qonşusu Asim Kazımov bildirib: "Həmişə onu özümə yaxın insan bilmişəm. Tez-tez rastlaşıb söhbətləşirdik. Çox sağlam və gümrah insan idi. Onu pilot geyimində görəndə deyirdim, qəhrəman doğulmusan. O, elə insan kimi də qəhrəman idi. Baxmayaraq ki, rus idi, amma hamı ilə Azərbaycan dilində danışırdı. Mən onu qəzadan bir gün əvvəl görmüşdüm. Səhəri gün onu itirəcəyimizi ağlıma da gətirmədim. Çox məsuliyyətli insan idi. Hər dəfə də getdiyi ölkələr barədə danışırdı".

Uzun müddət onunla qonşuluqda yaşayan Mehman Şöyübov qəhrəman pilotu belə xatırlayır: "İqor çox gözəl qonşu idi. Sonuncu dəfə yanımızdan keçəndə salamlaşdıq. Hər zaman yaxşı insan olub, xatirəmdə elə də qalacaq. Onun haqqında danışmaq çox çətindir. Ailədə də çox hörmətli idi, mehriban idi. Xəbəri eşidəndə heç kim inanmadı, çünki o həm də gözəl pilot idi. Televiziyadan eşitdik ki, belə bir faciəvi hadisə olub. Biz indi də elə bilirik ki, qayıdacaq. İşini sevən, ondan zövq alan insan idi. Uzun müddət idi işləyirdi, həmişə də işinə həvəslə yanaşırdı".

Prezident İlham Əliyevin 29 dekabr 2024-cü il tarixli Sərəncamı ilə Kşnyakin İqor İvanoviç ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülüb.

**Müşfiq MİRZƏ,**
**"Respublika".**